# Ələt qəsəbəsində şəhid İbrahimov Elnurun xatirəsi anılıb




**2023-cü il avqustun 29-da YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev və aparatın əməkdaşları şəhid Elnur Dönməz oğlu İbrahimovun Ələt qəsəbəsində yaşayan ailə üzvlərinə baş çəkib və onların problemləri ilə maraqlanıblar.**

Elnur Dönməz oğlu İbrahimov 29 avqust 1998-ci ildə Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində anadan olub. 2004-ci ildə Ələt qəsəbəsində yerləşən 302 saylı orta məktəbin 1-ci sinfinə daxil olan Elnur 2015-ci ildə həmin məktəbi bitirib. Oxuduğu illər ərzində öz təlim-tərbiyəsi ilə həm şagird, həm də müəllim kollektivi içərisində özünə xüsusi hörmət qazanıb. 2016-cı ilin oktyabr ayında ordu sıralarına yollanıb, hərbi xidməti Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda Dövlət Sərhəd Xidmətinin İranla sərhəd xəttində keçib. 2018-ci ilin aprel ayında hərbi xidmətini bitirib. 2018-ci ilin dekabrında DSX-nin gizir kursunda oxuyub. Kursu bitirdikdən sonra DSX Lənkəran Korpusunun Lerik Zastavasında gizir rütbəsi ilə qrup komandiri vəzifəsində işləməyə başlayıb.



Azərbaycan Dövlət Sərhəd Xidməti Sərhəd Qoşunlarının kiçik giziri olan Elnur İbrahimov 2020-ci ilin avqust ayında könüllü olaraq DSX-nin Xüsusi Təyinatlı Qüvvələrinin tərkibinə keçib. Bir ay Daşkəsən rayonunda təlim keçdikdən sonra sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Hadrut qəsəbəsi, Xudafərin körpüsünün azad olunması üçün gedən döyüşlərdə savaşın, həmin ərazilərin alınması və bayraq taxılmasında iştirak edib. Elnur İbrahimov 2020-ci il oktyabrın 21-də Zəngilan döyüşləri zamanı qəhrəmancasına şəhid olub. O, Hacıqabul rayonundakı Navahi qəsəbəsindəki məzarlıqda dəfn olunub.

**Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Elnur İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə","Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib. Subay, ailənin tək oğlu, iki bacının tək qardaşı idi.**

**Allah rəhmət eləsin!**

**Azad RZAZADƏ**